

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 163 (20.817)

3 sentyabr 2013-cü il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


# Şəxsiyyətin qüdrəti

## *1991-ci ilin 3 sentyabrı Azərbaycan tarixinə xilaskarlıq missiyasının başlanğıcı kimi yazılmışdır*

***“...Gərək hər bir rəhbər adam belə hesab etsin ki, onun borcu xalqının, öz torpağının, rəhbərlik etdiyi vilayətin, respublikanın müqəddəsliyinin keşiyində durmaqdır. Demək, özünü bir kənara qoymalısan, öz şəxsi arzularından əl çəkməlisən, özünü ancaq bu işə sərf etməlisən”.** 3 sentyabr 1991-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin binası qarşısına toplanmış insanların təkidli tələbi ilə muxtar respublika rəhbəri seçilməyə razılıq verən ulu öndərimiz Heydər Əliyev məhz bu müdrik fikrinin işığında öz xilaskarlıq missiyasına başlamışdır.*



Deyirlər ki, böyük şəxsiyyətlərin dünyaya gəlişi sakit, idarəçiliyə gəlişi mərhələli, idarəçilikdən gedişi xarizmatik, siyasi hakimiyyətə yenidən qayıdışları isə möhtəşəm olur. Bu möhtəşəm qayıdış heç də həmişə yox, yalnız tarixin gedişatının dəyişdiyi məqamlarda baş verir. Ümummilli lider Heydər Əliyevin dövlətçilik fəaliyyətinə nəzər saldığımız zaman biz bu mərhələləri açıq-aydın görürük.

Ötən əsrin 60-cı illərinə qədər dövlət idarəçiliyinin müxtəlif və məsuliyyətli mərhələlərində özünü sınamış ümummilli lider Heydər Əliyev dühası üçün 1969-cu ilin iyul ayının 14-dən sonrakı dövr yeni bir mərhələ olmuşdur. Bu mərhələdə xalqımızın böyük oğlu təkcə dövlət rəhbəri kimi yox, əsl dövlət xadimi kimi özünəməxsus idarəçilik fəlsəfəsinin əsas konturlarını müəyyənləşdirmişdi. Dahi öndəri dövlət rəhbərindən ali səviyyəli dövlət xadimi səviyyəsinə qaldıran da məhz bu idarəçilik fəlsəfəsi olmuşdur.

Heydər Əliyev idarəçilik fəlsəfəsinin əsas ideya-siyasi istiqamətini xalqın tarixi yaddaşının bərpası, sürətli inkişaf strategiyasının gerçəkləşdirilməsi kimi mühüm amillər təşkil edir. Dahiyanə uzaqgörənliklə ölkənin uzunmüddətli, dinamik və hərtərəfli inkişafını təmin edən kompleks layihələrin həyata keçirilməsi, respublikanın böyük şəhərlərindən tutmuş ən ucqar dağlıq rayonlarını da əhatə etməklə çoxlu sayda zavod, fabrik, istehsal sahələrinin tikilib istifadəyə verilməsi, yeni iş yerlərinin açılması və əhalinin sosial-məişət şəraitinin xeyli yaxşılaşdırılması ulu öndərin siyasi fəaliyyətinin əsas istiqamətlərini təşkil etmişdir. Ötən əsrin 70-ci illərindən başlanan kompleks inkişaf Azərbaycanın digər regionları ilə yanaşı, Naxçıvan Muxtar Respublikasını da öz əhatəsinə almışdı. Muxtar respublikada sənaye, tikinti-quruculuq və aqrar-sənaye kompleksinin inkişafına nail olunmuş, emal və hasilat şəbəkəsi genişlənmişdi. Naxçıvanda zavodlar, fabriklər, kombinatlar tikilmiş, regionun inkişafını gücləndirmək məqsədilə müxtəliftəyinatlı müəssisələr yaradılmışdı.

XX əsrin 80-ci illərinin sonunda Sovet İttifaqı kimi nəhəng imperiyanın süquta uğraması ictimai-siyasi vəziyyəti daha da ağırlaşdırmışdı. Həmin dövrdə cərəyan edən ölkədaxili və regional siyasi proseslər Azərbaycanı da uçurumun bir addımlığına gətirib çıxarmış, Ermənistanın əsassız torpaq iddialarına rəvac verilmişdi. Həmin vaxt ölkədən təcrid olunmuş, blokada şəraitində yaşayan Naxçıvan isə taleyin ümidinə buraxılmışdı. Azərbaycan iqtidarı muxtar respublikaya ögey münasibət bəsləyir, Naxçıvanı “acı bağırsaq kimi kəsib atmaq”, bəziləri isə muxtariyyət statusunu ləğv etmək barədə bəyanatlarla çıxış edirdilər. Yaranmış boşluqdan istifadə edən Ermənistan isə siyasi və hərbi təzyiqlərini getdikcə artırırdı.

Vəziyyətin bu qədər gərgin olmasına baxmayaraq, Naxçıvanda əhali bütün sahələrdə çətinliklərə müqavimət göstərir, muxtar respublikanın ərazi bütövlüyünü qorumaq üçün mərdliklə mübarizə aparırdı. Bunların əvəzində həm mərkəzi hökumət, həm də mərkəzin diqtəsi ilə Azərbaycanın yerli hakimiyyət orqanları Naxçıvan camaatına və muxtar respublikanın hakimiyyət orqanlarına təzyiq göstərirdi. Kreml rəhbərliyi Ermənistan ordusuna dəstək verməklə Naxçıvana qarşı həmlələri genişləndirirdi. Bu cür çətin, mürəkkəb və məsuliyyətli məqamda ulu öndərimiz Heydər Əliyev kimi böyük və zəngin həyat məktəbi keçmiş təcrübəli dövlət xadiminin Azərbaycana qayıdışı, 1990-cı il iyulun 22-də Naxçıvana gəlməsi, həmin ilin 30 sentyabrında Azərbaycan Respublikasının Ali Sovetinə və muxtar respublikanın Ali Məclisinə deputat seçilməsi xalq arasında ölkənin gələcəyinə inamı gücləndirmişdi.

Görkəmli dövlət xadimi Heydər Əliyevin 1991-ci il sentyabrın 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsinə seçilməsi isə Azərbaycan xalqının taleyində böyük siyasi əhəmiyyətə malik olan tarixi hadisə, eyni zamanda yuxarıda qeyd etdiyimiz kimi, bir dövlət xadiminin dövlət idarəçiliyinə möhtəşəm dönüşü idi. Dünyanın iki nəhəng dövlətindən biri kimi tanınan Sovetlər İttifaqının rəhbərlərindən biri olmuş, uzun illər Azərbaycan Respublikasına bacarıqla rəhbərlik etmiş ulu öndər Heydər Əliyevin Ali Məclisin Sədri seçilməsi Azərbaycan milli dövlətçilik tarixinin ən mühüm hadisəsi, Azərbaycan xalqının itməkdə olan ümidlərinin dirçəldilməsi və gələcəyə inamının artması baxımından möhtəşəm dönüş idi.

1991-ci il sentyabrın 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin fövqəladə sessiyası gərgin bir dövrdə keçirilmişdi. Bundan bir neçə gün əvvəl – 1991-ci ilin avqust ayında SSRİ-də Mixail Qorbaçov iqtidarına qarşı çevriliş cəhdi göstərilmiş, imperiyanı saxlamaq təşəbbüsü bununla da, arxivin bir küncünə atılmışdı. İmperiyanın parçalanmağa doğru getdiyi, müttəfiq respublikaların öz müqəddəratını təyin etmək üçün cəhdlər göstərdiyi bir məqamda Azərbaycan hakimiyyətinin hələ də imperiya caynağından qurtulmaq üçün ən adi cəhdi belə, göstərməməsi Azərbaycanı baş verən proseslər kontekstində oyundankənar vəziyyətə salırdı. Məsələn, o dövrdə Sovet İttifaqı Kommunist Partiyasının dağılmasına baxmayaraq, Azərbaycanda hələ də bu partiyanı saxlamaq üçün cəhdlər göstərilirdi. Xalq deputatı Heydər Əliyevin böyük uzaqgörənliyi sayəsində Ali Məclisin 1991-ci il 26 avqust tarixli sessiyasında Azərbaycan Kommunist Partiyasının Naxçıvan Vilayət Təşkilatını buraxmaq məsələləri müzakirə edilərək qərar çıxarılmışdı. Faktiki olaraq, Naxçıvan Muxtar Respublikasında Sovet hakimiyyəti yox idi. Çünki Naxçıvan Muxtar Respublikası Ali Məclisinin görkəmli dövlət xadimi Heydər Əliyevin sədrliyi ilə keçirilən 1990-cı il 17 noyabr tarixli sessiyası Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adını dəyişərək Naxçıvan Muxtar Respublikası adlandırılmasını qərarlaşdırmışdı. SSRİ-nin hələ süqut etmədiyi dövrdə Naxçıvan MSSR-in adından “Sovet Sosialist” sözlərinin çıxarılması Heydər Əliyevin sarsılmaz siyasi iradəsinin və böyük uzaqgörənliyinin nəticəsində mümkün olmuşdu. Sessiyada Azərbaycanın dövlət rəmzi kimi Xalq Cümhuriyyəti dövründə qəbul edilmiş üçrəngli bayrağın Naxçıvan Muxtar Respublikasının Dövlət bayrağı kimi qəbul edilməsi barədə yekdilliklə qərar qəbul edilmiş və Dövlət bayrağı Ali Məclisin iclas salonuna gətirilmişdi. Bütün bunlar yalnız və yalnız ulu öndərin böyük siyasi iradəsinin, yüksək Azərbaycançılıq idealının, eləcə də qeyri-adi cəsarətinin sayəsində həyata keçirilmişdi.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 1991-ci il 3 sentyabr tarixli fövqəladə sessiyasının gündəliyinə Naxçıvan Muxtar Respublikası ilə əlaqədar zəruri məsələlər daxil edilmişdi. Fövqəladə sessiya ölkədə Azərbaycan Respublikası Prezidenti seçkilərinin keçirilməsinə münasibət bildirməli idi. Eyni zamanda gündəliyə daxil edilmiş Azərbaycan Kommunist Partiyası Təşkilatının fəaliyyətini davam etdirib-etdirməməsi məsələsi də cəsarətli münasibət tələb edirdi. Hətta gündəlikdə öz əksini tapmış vilayət partiya təşkilatının əmlakının inventarizasiyasının aparılması üçün komissiyanın yaradılması məsələsinin həllini arzu etməyən bəzi qüvvələr də var idi. Gündəlikdə nəzərdə tutulan məsələlərin həmısının həllinə təsir göstərmək Azərbaycanda müstəqil dövlətçilik prosesinin dərinləşdirilməsinə və sürətləndirilməsinə xidmət edəcəkdi. Ancaq həmin məsələlərin müsbət həlli Naxçıvan Muxtar Respublikası Ali Məclisinin fövqəladə sessiyasında bu ali hakimiyyət orqanının sədri seçiləcək şəxsin siyasi iradəsindən, cəsarətindən və uzaqgörənliyindən çox asılı idi.

Sadalanan bu xarakterik xüsusiyyətləri isə xalq yalnız və yalnız bir siyasi liderdə – ümummilli liderimiz Heydər Əliyevdə görürdü. Həmin gün Ali Məclisin binası qarşısına toplanmış minlərlə insanın ulu öndər Heydər Əliyevin Ali Məclisin Sədri seçilməsini tələb etməsi də məhz bundan irəli gəlirdi. Görkəmli dövlət xadimi Heydər Əliyev isə Azərbaycana qayıdarkən dediyi fikri təkidlə təkrarlayırdı. Əvvəlki çıxışlarında olduğu kimi, məlum sessiya ərəfəsində də ulu öndərimiz Heydər Əliyev heç bir rəsmi dövlət vəzifəsi daşımaq niyyətində olmadığını bildirmişdi. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 3 sentyabr 1991-ci il tarixli sessiyasının iclasında da o, dörd dəfə çıxış edərək namizədliyini irəli sürənlərə minnətdarlıq duyğularını ifadə etmiş, lakin bunu istəmədiyini dəfələrlə təkrarlamış, digər bir namizədin seçilməsini təkid etmişdi. Ulu öndərimizin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 3 sentyabr 1991-ci il tarixli sessiyasındakı qısa, lakin tarixi çıxışları fikrimizi bir daha təsdiq edir: ***“Xahiş edirəm, məni düzgün başa düşəsiniz. Və bilin ki, bu, mənim tərəfimdən tamamilə qətiyyətlə deyilən sözdür. Mən necə bir azərbaycanlı kimi, necə bir Naxçıvan əhli kimi çiynimə avtomat salıb, bax bu dağlarda gedib, Naxçıvan torpağını qorumağa hazıram. Naxçıvan Ali Məclisinin hər bir tapşırığını yerinə yetirməyə hazıram. Azərbaycan xalqının yolunda, onun azadlığı yolunda, Naxçıvanın gələcək inkişafı yolunda canımı qurban verməyə hazıram. Ancaq mən vəzifə tutmaq istəmirəm. Xahiş edirəm, bunu düzgün başa düşəsiniz. Mənim üzərimə başqa nə vəzifə, tapşırıq verəcəksinizsə, mən hamısına hazıram. Yenə də deyirəm, mən buradan çıxıb, avtomatı çiynimə salıb, gedib dağlarda Naxçıvanı qorumağa hazıram. Buna təcrübəm də var, hələ ki gücüm də var. Ancaq xahiş edirəm ki, bu sözlərimi səmimi söz kimi qəbul edəsiniz, məni başa düşəsiniz və xahiş edirəm ki, bu məsələni müzakirə etməyəsiniz”.***

Belə bir məqamda zaldakı deputatların ümummilli liderin diqqətinə yalnız deputatların deyil, xalqın təkidli tələbini çatdırması ulu öndərimizin Azərbaycanın taleyi naminə razılıq verməsi ilə nəticələnmişdi. Beləliklə, xalqın təkidi ilə ulu öndər Heydər Əliyev ölkə və region üçün fövqəladə şəraitdə, fövqəladə olaraq çağırılması zəruri sayılmış sessiyada bu ali dövlət qurumunun rəhbəri seçilməsinə razılıq verməli olmuşdu.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin bütün tarixi ərzində keçirilmiş ən uzunmüddətli – 5 gün davam edən bu sessiyasında ölkə səviyyəsində və region üçün əhəmiyyətli olan məsələlər geniş müzakirə edilərək müvafiq qərarlar qəbul olunmuşdur. Gündəlikdə duran məsələlərə uyğun olaraq, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyası yaranmış tarixi şəraitdə alternativsiz namizəd irəli sürüldüyünü, həlelik, ölkədə çoxpartiyalı sistemin formalaşmadığını, Kommunist Partiyasının süquta uğradığını, seçki komissiyası və məntəqələri üzvlərinin partokratiya nümayəndələrinin sifarişi ilə təyin olunduğunu nəzərə almaqla Azərbaycan Respublikasının Prezidentinin seçilməsi üçün 1991-ci il 8 sentyabr tarixə təyin edilmiş seçkilərin Naxçıvan Muxtar Respublikası ərazisində keçirilməsinin dayandırılmasına dair qərar qəbul etmişdir. Eyni zamanda 3 sentyabr 1991-ci il tarixli sessiyada “Azərbaycan Kommunist Partiyasının və onun strukturlarının fəaliyyətinə münasibət haqqında” məsələ müzakirə olunaraq Azərbaycan Respublikasının Ali Sovetindən xahiş edilmişdir ki, Sovet İttifaqı Kommunist Partiyası, Siyasi Büro, Mərkəzi Komitə dağıldıdığı üçün respublikada da bu siyasi-təşkilati qurumların fəaliyyəti dayandırılsın. Bundan başqa, sessiyada Naxçıvan Muxtar Respublikasında partiya təşkilatlarının əmlakının milliləşdirilməsini təmin etmək üçün deputat komissiyasının yaradılmasına da qərar verilmişdir.

Ali Məclisin Sədri kimi yorulmaq bilmədən çalışan ümummilli liderimiz real düşmən təcavüzünə məruz qalan, blokada şəraitində yaşayan Naxçıvanın, ilk növbədə, müdafiə qabiliyyətini gücləndirməyə başladı. 1991-ci il sentyabrın 7-də Ali Məclis Naxçıvan Muxtar Respublikası Dövlət Müdafiə Komitəsinin yaradılması haqqında qərar qəbul etdi. Bu qərar Naxçıvanın müdafiə qabiliyyətinin gücləndirilməsi istiqamətində görülən işlərin başlanğıc nöqtəsi idi. Sonrakı dövrlərdə qəbul edilmiş tarixi qərarlarla isə Naxçıvanda yerləşən sovet qoşunlarına məxsus hərbi texnika və silahların yüz faiz muxtar respublikada saxlanması təmin olundu. Əhalinin böyük mütəşəkkilliyi, torpağa bağlılığı və ulu öndərə olan sonsuz inamı nəticəsində muxtar respublikada Milli Ordu yaradıldı, Naxçıvanın müdafiə potensialı gücləndirildi, bugünkü qüdrətli Azərbaycan Ordusunun əsası qoyuldu. Qeyd etmək lazımdır ki, ilk milli hərbi parad da 1992-ci il oktyabrın 9-da Naxçıvanda keçirilmişdi.

Ardı 2-ci səhifədə

Həmin dövrdə düşünülmüş genişmiqyaslı müdafiə tədbirləri nəticəsində Naxçıvan Muxtar Respublikası kənardan böyük dəstək alan Ermənistanın işğalından xilas oldu.

Ümummilli liderimiz Heydər Əliyev Ali Məclisin Sədri işləyərkən dünya azərbaycanlılarını bir ideya ətrafında – Vətənə və xalqa xidmət uğrunda birləşməyə səsləmişdir. 1991-ci il dekabrın 16-da Ali Məclis tərəfindən "31 dekabr Dünya Azərbaycan Türklərinin Həmrəylik və Birlik Günü haqqında" Qərarın qəbul edilməsi xüsusi əhəmiyyətə malikdir. Eyni zamanda ulu öndər Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri olarkən xarici iqtisadi əlaqələrin qurulması sahəsində də mühüm addımlar atmış, 1992-ci ildə qonşu Türkiyə Cümhuriyyətinə və İran İslam Respublikasına səfərlər etmiş, bu zaman keçirilən görüşlərdə iqtisadi sahədə əməkdaşlığa dair protokollar imzalanmışdı. İmzalanan protokollara əsasən, hər iki dövlətlə iqtisadi, mədəni, təhsil və digər sahələrdə qarşılıqlı münasibətlər qurulmuşdu. 1993-cü il fevralın 5-də Türkiyə Cümhuriyyətinin, martın 8-də isə İran İslam Respublikasının Naxçıvanda konsulluqları fəaliyyətə başlamışdır.

Muxtar respublikanın dağılmış iqtisadiyyatının, xüsusilə də kənd təsərrüfatının dirçəldilməsi istiqamətində tədbirlərin həyata keçirilməsi də ümummilli liderimizin diqqət mərkəzində olmuşdur. Ali Məclisin 1992-ci il aprelin 6-da keçirilən sessiyasında "Naxçıvan Muxtar Respublikasında zərərlə işləyən kolxoz və sovxozlar haqqında" və "Rentabelli işləyən kolxoz və sovxozların ictimai mal-qarasının özəlləşdirilməsi barədə təkliflər haqqında" qərarlar qəbul edilmiş, bu islahatlar aqrar bölmədə irəliləyişlərə səbəb olmuşdur. 1992-ci il noyabrın 21-də isə respublikanın müxtəlif bölgələrindən gələn 550-dən artıq nümayəndənin iştirakı ilə Yeni Azərbaycan Partiyasının təsis konfransı keçirilmişdi. Bir sözlə, görkəmli dövlət xadimi Heydər Əliyevin rəhbərliyi ilə 1991-1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Azərbaycanda müstəqil dövlətçiliyin böyük məktəbinə çevrilmişdir. Bu elə bir məktəb idi ki, müstəqil Azərbaycanın dövlətçilik sisteminin konturları, gələcək inkişafın istiqamətləri məhz burada müəyyənləşdirilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov dahi şəxsiyyətin siyasi fəaliyyətinin Naxçıvan dövrü barədə demişdir: ***"Azərbaycanın siyasi tarixində parlaq iz qoymuş bu böyük şəxsiyyətin Naxçıvanda yenidən siyasi hakimiyyətə qayıdışı, sıravi deputat, sonralar isə Naxçıvan Muxtar Respublikasının rəhbəri kimi fəaliyyət göstərməsi Naxçıvandan başlanan müstəqillik yolunun bütün Azərbaycan siyasi mühitində aparıcı qüvvəyə çevrilməsinə, milli dövlətçiliyin bərpası istiqamətində qəti addımların atılmasına gətirib çıxartdı".***

Heydər Əliyev siyasətinin uğurla davam etdirilməsi sayəsində regionların inkişafı proqramının düşünülmüş və məqsədyönlü həlli ilə Azərbaycanda bütün bölgələrin bərabər və yüksək inkişafına nail olunmuşdur. Nəticədə, qısa müddətdə dünyanı heyran qoyan möhtəşəm Azərbaycan dövləti yaradılmışdır. Bu dövrdə Naxçıvan Muxtar Respublikasında da böyük inkişafa nail olunmuşdur. Bu gün əminliklə deyə bilərik ki, ümummilli liderimiz Heydər Əliyevin tarixin çətin məqamlarında böyük xilaskarlıq missiyasını həyata keçirərək qoruyub saxladığı və gələcək inkişaf proqramını müəyyən etdiyi Naxçıvan Muxtar Respublikası hazırda ulu öndərin arzusunda olduğu inkişafa və tərəqqiyə qovuşub. Təsadüfi deyildir ki, bu gün Naxçıvanı siyasi baxımdan "Qafqazın Strasburqu", iqtisadi inkişaf baxımından isə "Qafqazın San-Fransiskosu" kimi təqdim edirlər. Bütün bunlar isə ümummilli lider Heydər Əliyevin dövlətçilik yolunu Naxçıvanda ardıcıllıqla davam etdirən Ali Məclisin Sədri cənab Vasif Talıbovun Azərbaycan dövlətçiliyi qarşısında tarixi xidmətidir.

Göründüyü kimi, görkəmli dövlət xadimi Heydər Əliyevin iyirmi iki il bundan əvvəl, 1991-ci il sentyabrın 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilməsi ilə Azərbaycan dövlətçiliyinin və müstəqilliyinin qurtuluş tarixi başlanmışdır. Dövlət başçısı cənab İlham Əliyevin böyük siyasətdə və möhtəşəm quruculuq proseslərində atdığı ciddi və əhəmiyyətli addımlar isə bu qurtuluşun əbədi olacağına təminat verir.

**"Şərq qapısı"**

# Türkiyə Respublikasının İğdır Vilayətinin nümayəndə heyəti Naxçıvanda səfərdə olmuşdur





Avqustun 31-də Türkiyə Respublikasının İğdır Vilayətinin valisi Ahmet Pek və onu müşayiət edən nümayəndə heyəti Naxçıvan Muxtar Respublikasında səfərdə olmuşdur.

Səfər ümummilli lider Heydər Əliyevin Naxçıvan şəhərində əzəmətlə ucalan abidəsini ziyarətlə başlamış, qonaqlar Heydər Əliyev Muzeyi ilə tanış olmuşlar. Muzeydə ulu öndərin çoxşaxəli siyasi və dövlətçilik fəaliyyəti barədə qonaqlara ətraflı məlumat verilmişdir.

Muzeylə tanışlıqdan sonra iğdırlı rəsmilər Daxili Qoşunların Naxçıvan Alayında olmuşlar. Qonaqlar alayın döyüş texnikalarına baxmış, xidmətin təşkili ilə maraqlanmışlar. Həmçinin onlar alayın zabit-gizir ailələri üçün tikilib istifadəyə verilən yaşayış binalarında yaradılan şəraitlə də tanış olmuşlar.





Daha sonra səfər Naxçıvan Biznes Mərkəzi ilə tanışlıqla davam etdirilmişdir. Məlumat verilmişdir ki, burada muxtar respublikanın 54 müəssisəsindən gətirilən yerli istehsal məhsulları nümayiş etdirilir. Mərkəzdə sərgiyə qoyulan 230-dan çox ərzaq və sənaye məhsulları, həmçinin sənətkarlıq nümunələri qonaqlar tərəfindən maraqla qarşılanmışdır. Nümayəndə heyəti muxtar respublikadakı bir neçə sənaye və istehsal müəssisələrində də olmuş, müəssisələrin iş prosesi və istehsal olunan məhsulların keyfiyyəti ilə maraqlanmışdır.

Naxçıvan şəhərinin tarixi abidələri və görməli yerləri ilə tanışlıq Nuh Peyğəmbərin məzarüstü türbəsini ziyarətlə başlamışdır. Sonra qonaqlar "Naxçıvanqala"da aparılan bərpa işləri ilə də tanış olmuş, Əcəmi seyrəngahındakı Açıq Səma Altında Muzeyə və Möminə xatın türbəsinə baxmışlar. İğdırlı qonaqlar Heydər Əliyev Sarayında da olmuş, Naxçıvan Dövlət Rəsm Qalereyasında naxçıvanlı rəssamların müxtəlif janrlarda çəkdikləri rəsmlərdən ibarət sərgiyə baxmışlar. "Xan Sarayı" Dövlət Tarix-Memarlıq Muzeyi, Xalça Muzeyi və Duzdağ Fizioterapiya Mərkəzi ilə tanışlıq da qonaqlarda xoş təəssürat yaratmışdır.

Bununla da, İğdır nümayəndə heyətinin Naxçıvan Muxtar Respublikasına səfəri başa çatmışdır.

**"Şərq qapısı"**

# Trabzon Dövlət Teatrının hazırladığı "Bu da keçər ya hu" tamaşası Naxçıvanda səhnəyə qoyulmuşdur





Avqustun 30-da Naxçıvan Dövlət Musiqili Dram Teatrında Trabzon Dövlət Teatrı tərəfindən hazırlanan "Bu da keçər ya hu" tamaşasına baxış olmuşdur.

Tamaşa başlamazdan əvvəl Naxçıvan Muxtar Respublikasının mədəniyyət və turizm naziri Sarvan İbrahimov çıxış edərək demişdir ki, dost və qardaş ölkə olan Azərbaycan və Türkiyə arasında əlaqələr yalnız siyasi və iqtisadi sahədə qurulan əməkdaşlıqla məhdudlaşmır, eyni zamanda mədəniyyət sahəsində də əlaqələr durmadan inkişaf edir. Mədəni sahədə əlaqələrin inkişafında teatrların mühüm rolu vardır. Çünki teatrlar hər bir xalqın mədəniyyətini yaşadan, inkişaf etdirən, təbliğ edən sənət ocaqlarıdır.

Qeyd olunmuşdur ki, ölkəmiz müstəqillik qazandıqdan sonra Naxçıvan teatrının Türkiyə teatrları ilə sıx əlaqəsi qurulmuşdur. Trabzon Dövlət Teatrı tərəfindən hazırlanan "Bu da keçər ya hu" tamaşasının Naxçıvan teatrının səhnəsində göstərilməsi Naxçıvan teatrı ilə qardaş ölkənin sənət ocaqları arasında mədəni əlaqələrin daha da inkişaf etdirilməsində və yaradıcılıq axtarışlarının artırılmasında mühüm əhəmiyyətə malik olacaqdır. Sarvan İbrahimov teatrın kollektivinə yeni-yeni yaradıcılıq uğurları arzulamış, onları 30 avqust – Türkiyə Respublikasının Zəfər bayramı münasibətilə təbrik etmişdir.

Türkiyə Respublikasının Naxçıvandakı Baş konsulu Cenk Ünal çıxış edərək demişdir ki, bu gün Türkiyə-Azərbaycan əlaqələri durmadan inkişaf edir. Naxçıvan Muxtar Respublikası ilə də bütün sahələrdə qurulan uğurlu əməkdaşlıq dərin köklərə malikdir. Trabzon Dövlət Teatrının kollektivinin Naxçıvana səfər etməsi də mədəniyyət sahəsindəki əlaqələrin inkişafının daha bir təzahürüdür. Cenk Ünal teatrın kollektivinə göstərilən diqqətə görə minnətdarlığını bildirmişdir.

Sonra tamaşaya baxış olmuşdur.

Trabzon Dövlət Teatrının aktyorlarından Fatih Dokgöz, Birkan Görgün, Fatih Topçuoğlu, Banu Manioğlu, Utku Ölməz və digərlərinin rol aldığı ikipərdəli tamaşaya Barış Erdenkin rejissorluğunda quruluş verilmişdir. Uğur Saatçının eyniadlı əsəri əsasında hazırlanan səhnə əsərində Osmanlının süqutu və Türkiyənin işğala məruz qaldığı bir vaxtda İstanbulda baş verən hadisələr canlandırılır. Tamaşada türk xalqının işğalçılara qarşı apardığı milli mübarizəyə öz imkanları daxilində dəstək verən Süha, Kəmal, Kadriyə, Falih obrazları özünəməxsus təbiiliklə canlandırılmışdır. Əsas süjet xəttinin milli mübarizə motivləri üzərində qurulması və yumoristik çalarlarla tamaşaçıya çatdırılması səhnə əsərinin bədii gücünü daha da artırmışdır.

Tamaşadan sonra Trabzon Dövlət Teatrının yaradıcı heyəti ilə görüşən Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin birinci müavini Azər Zeynalov Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri adından kollektivi salamlamış və uğurlu tamaşaya görə təbrik etmişdir.

**"Şərq qapısı"**

## Payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələr müzakirə olunur

***Naxçıvan Muxtar Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyində 2013-2014-cü ilin payız-qış mövsümünə hazırlıqla əlaqədar kollegiya iclası keçirilmişdir.***

İclası Naxçıvan Muxtar Respublikasının rabitə və informasiya texnologiyaları naziri Rövşən Məmmədov açaraq payız-qış mövsümünə hazırlıqla əlaqədar çıxış etmişdir.

Qeyd edilmişdir ki, əhalinin dayanıqlı rabitə ilə təmin olunması, rabitə xidmətinin keyfiyyətinin yüksəldilməsi məqsədilə tədbirlər planı hazırlanmışdır. Qış mövsümündə elektrik kəsintiləri, normadan fərqli elektrik verilişləri zamanı baş verə biləcək hadisələrin qarşısının alınması məqsədilə həyata keçirilən tədbirlər davam etdirilir. Gərginliyin dəyişməsinə ani reaksiya verən rele qurğuları, stabilizatorlar, abunə qutuları, arabağlantı xətləri üçün qoruyucu bloklar quraşdırılmışdır.

Xətt təsərrüfatının normativə uyğunlaşdırılması, rabitə kabellərinin elektrik xətləri ilə təhlükəli kəsişmələri qaçılmaz olan yerlərdə yeraltı keçid, yaxud rezin borulardan istifadə edilməsi, rayon mərkəzlərində və kəndlərdə yeraltı rabitə qurğularının tikilməsi ilə rabitə xətlərinin yer altına keçirilməsi həm kabellərin istismar müddətinin xeyli artmasına, həm də qəza hallarının əhəmiyyətli dərəcədə azalmasına səbəb olmuşdur. Cari ilin ilk 8 ayında 160 min 396 metr optik kabel çəkilmişdir. 2013-cü ildə yeni telefon çəkilişi və təmir işləri üçün 475 min 78 metr müxtəliftipli kabel ehtiyatı yaradılmışdır.

Nazir bildirmişdir ki, qış aylarında generatorlara və akkumulyatorlara ehtiyac artdığından rübdə bir dəfə bütün yardımçı qurğulara texniki baxış keçirilir. 2013-cü ilin ilk 8 ayı ərzində 152 ədəd yeni akkumulyator, 22 ədəd generator alınıb ATS-lərdə istifadəyə verilmişdir.

Sonra şəhər və rayon rabitə idarələrinin, Radio-Televiziya Ötürücü Mərkəzinin rəisləri çıxış edərək 2013-2014-cü ilin payız-qış mövsümünə hazırlıqla əlaqədar görülmüş işlər haqqında məlumat vermişlər.

***Naxçıvan Muxtar Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin mətbuat xidməti***

* * *

***Sədərək Rayon İcra Hakimiyyətində payız-qış mövsümünə hazırlıqla əlaqədar müşavirə keçirilmişdir. Tədbiri giriş sözü ilə rayon İcra Hakimiyyətinin başçısı Həbib İbrahimov açaraq bildirmişdir ki, avqustun 24-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində 2013-2014-cü ilin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilən müşavirədə bir sıra tapşırıqlar verilmişdir. Qarşıya qoyulmuş vəzifələrin yerinə yetirilməsi istiqamətində rayonda bir sıra tədbirlər həyata keçirilmiş və bu işlər ardıcıllıqla davam etdirilməkdədir.***

Görülsi işlərdən də danışan icra başçısı diqqətə çatdırmışdır ki, rayonda əhalinin etibarlı elektrik enerjisi ilə təmin olunması üçün Elektrik Şəbəkəsi mövcud elektrik xətlərində dayaqlararası məsafələrin standartlara uyğunluğuna nəzarəti gücləndirməli, istifadə müddəti başa çatmış elektrik dirəkləri və elektrik xətlərini yeniləməli, sayğacdankənar elektrik enerjisindən istifadə hallarının qarşısının alınması məqsədilə həyata keçirilən tədbirləri davam etdirməlidir. Elektrik enerjisində texniki itki minimuma endirilməli, lazımi mal-material ehtiyatı yaradılmalıdır.

Rayon Qaz İstismarı Sahəsi payız-qış mövsümündə fasiləsiz qaz nəqlini təmin etmək üçün mütəmadi olaraq qaz xətlərinə texniki baxış keçirməli, yaradılmış mal-material ehtiyatından səmərəli istifadə olunmalıdır. Qaz xətlərindəki nasazlıqlar və sayğacdankənar istifadə halları vaxtında müəyyən edilməli və aradan qaldırılması üçün tədbirlər görülməlidir.

Sədərəkdə təhsil, səhiyyə, mədəniyyət müəssisələrinin istilik sistemləri ilə təmin olunması istiqamətində görülən işlərdən də danışan İcra Hakimiyyətinin başçısı bildirmişdir ki, bu müəssisələrdə qazanxanalara texniki baxışın keçirilməsi, daxili istilik sistemlərinin qış mövsümünə hazırlığı qısa müddətdə başa çatdırılacaqdır.

Tədbirdə vurğulanmışdır ki, rayonda 100 ton tutumu olan soyuducu anbar fəaliyyət göstərir. Odur ki, əhalinin payız-qış mövsümündə ərzaq məhsulları ilə təminatını yaxşılaşdırmaq məqsədilə tələbatdan artıq istehsal olunmuş kənd təsərrüfatı məhsullarının soyuducu anbara tədarükü və onların standartlara uyğun şəkildə saxlanılması təmin ediləcəkdir.

Sonra payız-qış mövsümünə hazırlığın vəziyyəti ilə bağlı aidiyyəti təşkilatların nümayəndələrinin çıxışları olmuşdur.

Müşavirəyə rayon İcra Hakimiyyətinin başçısı Həbib İbrahimov yekun vurmuşdur.

✍ Cəfər ƏLİYEV

## Türkiyə ilə sərhəddə də rentgen nəzarət-yoxlama kompleksi qurulur

*İritonnajlı avtomobillərlə daşınan yüklərə gömrük nəzarətini həyata keçirmək məqsədilə Sədərək gömrük sərhəd-buraxılış məntəqəsində də X-Ray rentgen nəzarət-yoxlama kompleksinin qurulmasına başlanılıb. Binanın uzunluğu 36, eni 11, hündürlüyü isə 8,8 metr olacaq. Kompleks dəmir-beton qurğularla inşa ediləcək.*

“SHMİTH HCVG” markalı rentgen-nəzarət sistemi iritutumlu avtonəqliyyat vasitələrinin və onlarda daşınan yüklərin müayinəsində operativliyi və dəqiqliyi təmin edəcək. Bununla da, qaçaqmalçılığa, o cümlədən narkotik vasitələrin, odlu silahların, partlayıcı maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizədə effektivlik artacaq.

Qeyd edək ki, cari ildə muxtar respublikanın İran İslam Respublikası ilə sərhədində yerləşən hər iki gömrük orqanında – Culfa və Şahtaxtı gömrük sərhəd-buraxılış məntəqələrində X-Ray rentgen nəzarət-yoxlama kompleksləri qurularaq istifadəyə verilib. Almaniya istehsalı olan bu rentgen qurğusu vasitəsilə saatda 23 nəqliyyat vasitəsinə baxış keçirmək mümkündür. Yoxlama X-Ray şüasının köməyi ilə aparılır. Ümumi çəkisi 27 ton olan qurğu yük maşınlarının içərisində istənilən yerdə gizlədilmiş əşyaların təsvirini 1 mm dəqiqliklə görməyə, əşyanın tipini, habelə onların təhlükəlilik dərəcəsini müəyyən etməyə imkan verir. Müayinə bitdikdən sonra kompüterdə avtonəqliyyat vasitəsinin istənilən nöqtəsinə rəngli və ağ-qara formatda baxılır, dəqiq yoxlama və analiz aparılır. Əksetdirmədə üzvi və qeyri-üzvi maddələr rənglərlə avtomatik olaraq fərqləndirilir. Radioaktiv materiallar da ayrıca görünür. Yad cisimlər sıxlığına və quruluşuna görə ayırd edilir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin mətbuat xidməti***

## Ucqar dağ kəndlərinə sərnişin daşıyan marşrut-avtobuslar texniki müayinədən keçirilmişdir

Avqust ayının 24-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində 2013-2014-cü illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilmiş müşavirədə bir çox sahələrlə yanaşı, nəqliyyat-yol kompleksinə nəzarətin gücləndirilməsi ilə bağlı qarşıya konkret vəzifələr qoyulmuşdur. Məhz bununla əlaqədar avqustun 30-da Nəqliyyat Nazirliyinin texniki müayinə komissiyası Daxili İşlər Nazirliyinin Dövlət Yol Polisi İdarəsinin əməkdaşları ilə birlikdə ucqar dağ kəndlərinə işləyən nəqliyyat vasitələrini texniki müayinədən keçirmişlər.

Şərur rayonunun Havuş, Şahbulaq, Babək rayonunun Buzqov, Gərməçataq, Ordubad rayonunun Tivi, Unus, Pəzməri, Culfa rayonunun Ləkətağ, Göynük, Şahbuz rayonunun Şada, Yuxarı Qışlaq, Güney Qışlaq və sair kəndlərinə işləyən nəqliyyat vasitələrinin daxili qızdırıcı sistemləri yoxlanılmış, şinlərin naxışlarının ölçülərinə, habelə nəqliyyat vasitələrində dərman qutusu və odsöndürən balonların mövcudluğuna diqqət yetirilmiş, qışa hazırlığın başa çatdırılması üçün nəqliyyat vasitələri sürücülərinə bir ay vaxt verilmişdir.

Texniki müayinə zamanı Unus kəndinin marşrut sürücüsü Rüstəm Mirzəyev, Havuş kəndinin marşrut sürücüsü Əbülfəz İbrahimov və Ləkətağ kənd marşrutunun sürücüsü Fazil Həsənov göstərilən dövlət qayğısından danışmışlar. Onlar bildirmişlər ki, bu gün yollarımız abadlaşır, müasirləşir. Bu bir tərəfdən həmin kəndlərin sakinlərinin rahatlığına xidmət edirsə, digər tərəfdən nəqliyyat vasitələrinin istismar müddətinin uzanmasına şərait yaradır.

Payız-qış mövsümündə muxtar respublikada fasiləsiz nəqliyyat xidmətinin təmin edilməsi üçün Nəqliyyat Nazirliyinin texniki müayinə komissiyası Daxili İşlər Nazirliyinin Dövlət Yol Polisi ilə birlikdə digər kəndlərə işləyən avtobus və mikroavtobusların da yaxın günlər ərzində texniki müayinəsini həyata keçirəcəkdir.

***Naxçıvan Muxtar Respublikası Nəqliyyat Nazirliyinin mətbuat xidməti***

## Sosial müavinətlərin məbləği artırılmışdır

***Ölkəmizdə həyata keçirilən sosial siyasətin başlıca məqsədi əhalinin sosial müdafiəsinin təmin edilməsi, insanların rifah halının yaxşılaşdırılması, sosial müdafiəyə ehtiyacı olan vətəndaşların, o cümlədən şəhid ailələrinin, tənha ahılların, əlillərin, sağlamlıq imkanları məhdud uşaqların sosial müdafiəsinin gücləndirilməsindən ibarətdir. Əhalinin, o cümlədən xüsusi qayğıya ehtiyacı olan insanların həyat səviyyəsinin yaxşılaşdırılmasına impuls verən başlıca tədbirlərdən biri sosial müavinətlərin tətbiqidir. Sosial müdafiə sahəsində aparılan islahatların davamı olaraq, 2006-cı il 7 fevral tarixdə “Sosial müavinətlər haqqında” Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Bu qanunda göstərildiyi kimi, sosial müavinətlər əmək pensiyası almaq hüququ olmayan, ayrı-ayrı kateqoriyadan olan insanlara sosial yardım göstərilməsi məqsədilə aylıq və ya birdəfəlik ödənilən pul vəsaitidir.***

Əhalinin rifah halının yaxşılaşdırılması və sosial müdafiəsinin gücləndirilməsi istiqamətində ölkəmizdə məqsədyönlü tədbirlər həyata keçirilir. Bütün bunların nəticəsidir ki, ötən müddət ərzində sosial müavinətlərin məbləği 2,5 dəfə artırılmışdır.

Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 28 avqust tarixli “Azərbaycanın Milli Qəhrəmanı” adı verilmiş şəxslərin sosial müdafiəsinin gücləndirilməsi barədə” Fərmanına əsasən, “Azərbaycanın Milli Qəhrəmanı” adı verilmiş hər bir şəxs üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün aylıq məbləği artırılaraq 1000 (bir min) manat, “Şəhid ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdü”nün artırılması haqqında” Fərmanına əsasən, “Şəhid ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdü” nün aylıq məbləği atırılaraq 200 (iki yüz) manat, “Müharibə əlillərinə Azərbaycan Respublikası Prezidentinin təqaüdü”nün artırılması haqqında” Fərmanına uyğun həmin təqaüdün aylıq məbləği artırılaraq I qrup müharibə əlillərinə 110 manat, II qrup müharibə əlillərinə 85 manat, III qrup müharibə əlillərinə 60 manat məbləğində müəyyən edilmişdir.

Bu istiqamətdə həyata keçirilən tədbirlərin davamı olaraq, Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 29 avqust tarixli “Sosial müavinətlərin məbləğinin artırılması haqqında” Fərmanı ilə aylıq və birdəfəlik müavinətlərin məbləği artırılmışdır. Belə ki, yaşa görə müavinət 60 manat, ümumi səbəbdən əlilliyə görə müavinət I qrup əlillərə 67 manat, II qrup əlillərə 50 manat, III qrup əlillərə 43 manat, Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi zamanı sağlamlığını itirən, “1990-cı il 20 Yanvar hadisələri ilə əlaqədar” I qrup əlillərə 83 manat, II qrup əlillərə 66 manat, III qrup əlillərə 60 manat müavinət veriləcəkdir. Əlillik “Çernobıl AES-də hərbi xidmətlə əlaqədar” və ya “hərbi xidmət vəzifələrini yerinə yetirməklə əlaqədar” baş verdikdə I qrup əlillərə 77 manat, II qrup əlillərə 66 manat, III qrup əlillərə 50 manat, sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara 67 manat, ailə başçısını itirməyə görə 55 manat, “Müharibə veteranı” adı almış şəxslərə 37 manat, müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının uşaqlarına 55 manat, valideynlərini itirmiş, valideyn himayəsindən məhrum olmuş uşaqların qəyyumlarına 50 manat, bir yaşınadək uşağı olan aztəminatlı ailələrə 45 manat, şəhid uşaqlarına 17 manat, müharibə əlilləri, 20 Yanvar hadisələri zamanı əlil olanların, Çernobıl qəzası nəticələrinin aradan qaldırılması iştirakçılarının dispanser qeydiyyatında olan uşaqlarına 12 manat məbləğində aylıq müavinət, radiasiya qəzası nəticəsində zərərçəkmiş şəxslərə hər il müalicə üçün 195 manat, uşağın anadan olmasına görə 90 manat, dəfn üçün 120 manat məbləğində birdəfəlik müavinət ödəniləcəkdir.

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən yerli orqanlara müvafiq göstərişlər verilmiş, sentyabr ayından vətəndaşlara təqaüdlərin və müavinətlərin artırılmış məbləğdə ödənilməsi təmin ediləcəkdir.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

## Doğma diyarımızın yaşıl örtüyünü zənginləşdirmək hər birimizin vətəndaşlıq borcuna çevrilib

Bizi əhatə edən mühitin qayğısına qalmaq, doğma diyarımızın yaşıl örtüyünü zənginləşdirmək hər bir muxtar respublika sakininin ictimai məsuliyyətidir. Ötən həftə keçirilən iməciliklərdə də bu məsuliyyəti yaxşı dərk edən 25 minə yaxın insan Naxçıvan şəhəri və rayonlarımızda sahələrə çıxaraq təbiət qarşısında öz vəzifələrini yerinə yetirməyə çalışıblar. Naxçıvan şəhər ərazisində keçirilən iməciliklərdə Əshabi-Kəhf ziyarətgahına gedən yolun kənarlarında, Naxçıvan-Sədərək magistral yolunun ətrafında yaşıllıqlara qulluq göstərilib.

Şərur, Babək, Ordubad, Culfa, Kəngərli, Şahbuz, Sədərək rayonlarında da iməciliklər mütəşəkkilliklə davam etdirilib. Şərur rayonunda Gümüşlü kəndi ərazisindəki 5 hektarlıq meyvə bağı, Aşağı Yaycı Kənd Mərkəzinin ətrafı iməcilik iştirakçılarının alın təri hesabına abadlaşdırılıb, alaq otları təmizlənib, ağaclara aqrotexniki qulluq edilib.

Ümumiyyətlə, həmin gün Naxçıvan-Ordubad magistral yolunun kənarlarındakı, Qazi massivi və Əylis düzündəki yaşıllıqlara, Heydərabad qəsəbəsindəki park və xiyabanlara, Naxçıvan-Batabat yolunun ətraf ərazilərinə, Şahbuz rayonunun yaşıllıq sahələrinə qulluq göstərilib. Hər bir rayonda keçirilən iməciliklər zamanı ahıl vətəndaşlar da yada salınıb, onların həyətlərində təmizlik və abadlıq işləri aparılıb.

## Xok kəndində aparılan quruculuq işləri yekunlaşdırılır

***Kəngərli rayonunda son illər aparılan genişmiqyaslı quruculuq və abadlıq tədbirləri nəticəsində bu bölgənin siması tanınmaz dərəcədə dəyişib. Qabıllı, Şahtaxtı, Qıvraq, Yurdçu, Qarabağlar, Xok, Yeni Kərki, Böyükdüz, Xıncab, Təzəkənd və Çalxanqala kimi 11 yaşayış məntəqəsini əhatə edən rayonda genişmiqyaslı sosial infrastruktur layihələr həyata keçirilib, kənd və xidmət mərkəzləri, həkim ambulatoriyaları, yeni məktəb binaları tikilib və ya yenidən qurulub, yollar salınıb.***

Tikinti-quruculuq işləri cari ildə Xok kəndində davam etdirilir. Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Kəngərli Rayon İdarəsindən aldığımız məlumata görə, burada kənd mərkəzi, həkim ambulatoriyası üçün yeni binalar inşa edilir, məktəb binası yenidən qurulur, kəndarası yollarda abalıq işləri aparılır.

Kənd mərkəzinin binasında tikinti işləri əsasən yekunlaşdırılıb. Mərkəzdə inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, rabitə evi və digər qurumların normal fəaliyyət göstərmələri üçün hərtərəfli şərait yaradılacaq. İki mərtəbədən ibarət həkim ambulatoriyasının binasında son tamamlama işləri görülür, obyektin fasad hissəsinin üzlənməsi işi aparılır.

Kənd sakinləri tərəfindən böyük minnətdarlıq hissi ilə qarşılanan quruculuq tədbirlərindən biri də mövcud məktəb binasının yenidən qurulmasıdır. Layihəyə əsasən, mövcud binaya bitişik əlavə 3 korpus inşa olunub, ikimərtəbəli məktəb binasına daha bir mərtəbə əlavə edilib. 1026 şagird yerlik nəzərdə tutulan binanın iki korpusunda son tamamlama işləri görülür. Obyektlərin tikintisində yerli inşaat materiallarından istifadə edilir, keyfiyyət amili diqqətdə saxlanılır.

***Xəbərlər şöbəsi***

*Hər dərdin dərmanı olan bal asanlıqla başa gəlmir. Zərif qanadlı, təbiətin fəal canlısı, iş müddətində ömrü dörd həftəlik olan arı da digər canlılar kimi insan qayğısına möhtacdır. Pətəkləri təmiz olmalı, yeri zərərvericilərdən qorunmalı, rütubətsiz, işıqlı yerdə saxlanmalı, xəstələndikdə vitamin və biofəal maddələrə olan ehtiyacı ödənilməlidir. Əsl arıçılar deyirlər ki, təzə əkilmiş fidanlara necə qayğı göstərilirsə, arılara da belə qayğı ilə yanaşılmalıdır. Yalnız onda təmiz bal hasil olar.*

# Təbii bal ustaları əsl arı xidmətçiləridir

*Pətəkdə iki cür arı var müdam,*
*Necə ki pərvanəni aldadır şam.*
*Biri yem daşıyır hey axşam-səhər,*
*O biri gizlincə o yemdən yeyər.*
*Bal verən arının bircəsi yaqin,*
*Yüzündən yaxşıdır bal yeyənlərin.*

***Nizami Gəncəvi***

Arı da nəsil verir. Odur ki, arı ailəsində 500-dən 1000-dək erkək arı olur. Ana arı ilə mayalanmadan sonra bir qrup işçi arı bal istehsal etmək xüsusiyyətinə malik olmayan bütün erkək arıları pətəkdən qovaraq kənarlaşdırır.

Arının işi sirri-xudadır. Bir dəfə mütəxəssislər arının iş prosesini izləmək üçün içərisi görsənən pətək hazırlayırlar. Lakin arılar birəmumla pətəyin divarlarını suvayaraq işə başlayırlar. Bal mövsümündə kiminsə haram əli pətəyə uzandısa, yaxud bilə-bilə qonşunun təzəcə çıxan arı beçəsini "mənim arı beçəmdir" deyə tutub yeni arı ailəsi yaratsa da, hər iki halda arılar məhv olurlar.

Keçilidə 100 il yaşamış, ömrünün 70 ilini arıçılığa həsr etmiş Məşədi İsa baba deyirdi ki, bir gün arı pətəklərinə qulluq edəndə heyrətə gəldim. Baxdım ki, qutunun döşəməsində birəmumla örtülmüş ayrıüyrü bir zolaq var. Ərsinlə qaldıranda gözlərimə inanmadım. Bu, ilan ölüsü idi. Sən demə, ilan pətəyə girib, arılar onu sancaraq öldürüb. Cəsədi bayıra çıxara bilmədiklərindən onun üzərini birəmumla suvayıblar. Rəvayətə görə, fateh İsgəndərin də nəşi uzaq ölkələrdən vətəninə bal içərisində gətirilib.

Muxtar respublikamızda arıçılığın tarixi min illərlə ölçülür. Dilbər guşələrimizdən olan və zəngin təbiətilə fərqlənən Şahbuz dağlarında da məşhur arıçılar çox olublar. Küküdə Allahqulu Quliyev, Xudayar Quliyev, Zahid Səfərov, Şahhüseyn Səfərov, Keçilidə Məşədi Qəmbər, Məşədi İsa, 600-dən çox gərməşov səbətlərində saxladığı arılardan tonlarla bal götürən Hacı Nurəli, Kalba Əli, Nadir, Yasin, Nursuda Xalq şairi Məmməd Arazın atası İnfil, Zeynal Bağırov, Aydın Məmmədov, Külüsdə Zöhralı, Alməmməd, Məcid, Məmmədkərim, Yuxarı Qışlaqda Kalba İskəndər, Məmməd, Aşağı Qışlaqda Kalba İbrahim, Gəncəli babalar, Qızıl Qışlaq, Güney Qışlaq, Badamlı, Mahmudoba, Kolanı kəndlərində bir-birindən adlı-sanlı onlarla arıçılar bu sahədə böyük təcrübə miras qoyublar.

İndilər tez-tez belə bir sual səslənir: Niyə keçən əsrin 50-ci illərinin xüsusi ətirli təbii balı yoxdur?

Əlbəttə, bu sualın cavabı aydındır. Əsas məsələ arının yem bazasındadır. Oxuculara təkcə bir faktı çatdıraq ki, 1951-ci ilin statistik məlumatına əsasən, təkcə Şahbuz rayonunda öküz, at-qatır qüvvəsilə əkilib-biçilib, dərzləri daşınan və çoxmailli, traktor-kombayn işləyə bilməyən dağ yamaclarında 32 min hektaradək yazlıq arpa və buğda, payızlıq arpa və buğda, noxud, mərcimək, gülül, zəyərək kimi dənli bitkilər əkilib. Bunların yetişməsi ərik morranandan (yəni iyunun əvvəllərindən) ta payızın son günlərinədək davam etdiyindən, sahələr möhkəm qorunduğundan, ən başlıcası isə qədim su arxları erkən yazdan ta qış düşənədək işlək olduğundan arıların ruzi mənbəyi zəngin və bol olub. İndi də belədir, yəni hər il salınan meyvə bağları, aran zonadakı taxıl, yem və bostan bitkiləri, yazın əvvəllərində bütün bağlarda qulac-qulac çiçək açan bar ağacları, yemişan, zirinc, çöl armudu, alması, alçası, həmərsin, əppəkli, dovşan alması, bəzəkli kol bitkiləri, yal-yamacların hər cür çiçəkli örtüyü, bulaq və sulu çeşmələrin qar yağanadək təzə-tər bitki aləmi arıçılığın yem bazasıdır. Əlbəttə, təbiətdə baş verən dəyişikliklər arıçılıqdan da yan keçmir. Belə şəraitdə arılar da insan qayğısına ehtiyac duyur. Hazırda keçmiş arıçıların irsini yaşadan, çoxillik təcrübəsi əsasında əldə etdiyi yenilikləri arıçılıqda uğurla tətbiq edən arıçılar çoxdur. Onlardan iki nəfər haqqında söhbət açmaq istərdik. Şahbuzlu pedaqoqlardan Yunis Quliyev və Məhərrəm Məhərrəmovu nəinki muxtar respublikada, hətta ölkəmizin çox yerlərində tanıyırlar. Bu şəxslər hər il bir tona qədər hasil etdikləri balı bazara çıxarmırlar. Onların təmiz məhsulu arı ailələrinə nümunəvi xidməti sayəsində ərsəyə gəlir. Odur ki, onların müştəriləri, necə deyərlər, qapılarındadır.

Yunis müəllimə belə bir sualla müraciət etdik:

– Yunis müəllim, təbii balla süni balı necə ayırd edə bilərsiniz?

Yunis müəllim bir qədər gülümsədi və dedi:

– Qaşığı balla doldurub yuxarı, lap bir metrədək qaldırmaq lazımdır. Qaba süzüləndə şırnaq üzülmədisə, deməli, təbii baldır. Yaxud kibritin yanan tərəfini bala batırıb yandırın, alışıb yandısa, təbii baldır, su ilə hazırlanan süni bal deyil. Bir də xırda quru lavaşı bala salanda çörək yumşalmadı, quru qaldısa, təbii baldır. Əsl bal qış vaxtı ağarar. Buna balın xarlaması deyilir. Çox adamlar elə bilir ki, yəqin, şəkər tozundan hazırlandığı üçün belə ağarıb. Əslində, əsl bal belə olur.

Arılar 1 kiloqram bal üçün 20 milyondan çox çiçəyə qonaraq nektar toplayırlar. Pətəyin girəcəyində arılar birəmumdan balaca meydança düzəldirlər. Pətəyə girən arılar bu meydançadan keçərkən ayaqları, bədəni bu mühafizə zolağında dezinfeksiya olunur. Dünya baytarlıq xidmətində heyvanları xəstəlikdən qorumaq üsulu məhz arılardan bu xüsusiyyətindən öyrənilib.

Təcrübəli arıçılar deyirlər ki, erkən yazda ac qalmaqaları üçün arılara verilən şirənin 2-3 ay sonra bal hasil etmək prosesinə, təbii bal əldə edilməsinə qətiyyən aidiyyəti yoxdur. Elə ki baltoplama mövsümü başladı, onda arı ailələrinə şirə verilməsi dayandırılmalıdır.

İndi aqrar bölməyə olan dövlət qayğısı arıçılıq təsərrüfatına da böyük təkan verib. İş qalır arıçının imanı və insafına. Halal məhsul satana zaval gəlmir, saxta bal satanların itirdikləri qazanclarından çox olur.

**Qaşdar ƏLİYEV**
***aqronom-fenoloq***

# "Araz-Naxçıvan" dubl etdi

## *Türkiyədəki təlim-məşq toplanışı komandaya nə qazandırdı?*

Cari mövsümdə birinci divizionda oynayacaq "Araz-Naxçıvan" futbol komandası Türkiyənin Ərzurum şəhərində təlim-məşq toplanışında növbəti yoldaşlıq görüşünü keçirib. Əsgər Abdullayevin yetirmələri bu dəfə "Rize Kalkanderespor"u sınağa çəkiblər. Bundan öncəki matçını da qələbə ilə başa vuran qırmızı-ağlar stadionu yenə qələbə ilə tərk ediblər.

### *Dəyişən rəqiblər*

Ümumiyyətlə, birinci divizionda çıxış edən komandaların yeni mövsüm öncəsi hazırlıqlarını ölkədən kənarda davam etdirmələri nadir hallardan biridir. Bu ənənəyə, adətən, "Neftçala", "Qaradağ-Lökbatan" sadiq qalsa da, digər klublarımız maliyyə imkanlarını əsas götürərək ölkədən kənarda təlim-məşq toplanışı keçirməyi düşünməyiblər. Lakin yeni formalaşan "Araz-Naxçıvan"a göstərilən qayğı təlim-məşq toplanışında da özünü açıq şəkildə büruzə verməkdədir. Naxçıvan təmsilçisi yeni mövsümə iddialı hazırlaşmaq üçün avqust ayının 26-da Ərzuruma yollandı. Öncədən planlaşdırıldığı kimi, qırmızı-ağlar qonşu ölkədə iki yoldaşlıq görüşü keçirməli idi. Bununla Əsgər Abdullayev mövsümün başlamasına az bir müddət qalmış futbolçuların fiziki durumu, oyun təcrübəsi və onların mövsümə necə hazır olduqlarını yoxlamaq şansı əldə etdi.

### *Hər iki görüşün lideri "Araz-Naxçıvan" oldu*

Yoxlama oyunlarında "Araz-Naxçıvan"ın ilk rəqibi "Ərzurum BB" olmalı idi. Ancaq bəzi səbəblərə görə Əsgər Abdullayevin komandasının sparrinq-rəqibi Türkiyənin bölgələr üzrə birinci qrupunda mübarizə aparan "Yakutiyaspor" oldu. 55-ci dəqiqədə Rəhman Musayev, 64-cü dəqiqədə isə Aleksandr Kurtskeviçin qolları "Araz-Naxçıvan"a 0:2 hesablı ilk qələbəsini qazandırdı.

İlk matçdan fərqli olaraq, Əsgər Abdullayev ikinci yoxlama görüşündə yetirmələrinin nəyə qadir olduğunu yoxlamaq üçün əsas heyəti meydana buraxmışdı. Ərzurum şəhərində təlim-məşq toplanışının başa çatmasına bir gün qalmış yenə Türkiyənin bölgələr üzrə birinci qrupunda mübarizə aparan "Rize Kalkanderespor" Naxçıvan təmsilçisinin rəqibi oldu. Birinci yoxlama görüşündən fərqli olaraq, bu dəfə "Araz-Naxçıvan" oyuna daha sürətli başladı. Ard-arda təşkil olunan hücumlar artıq 3-cü dəqiqədə öz bəhrəsini verdi. Naxçıvan təmsilçisinin müdafiəçisi Əlimirzə Daşzərini 35 metr məsafədən mükəmməl zərbə ilə hesabı açdı. Bu qol həm də komandamızın daha çox irəli atılmasına zəmin yaratdı. Qoldan ruhlanan "Araz-Naxçıvan" futbolçuları rəqib qapısı önündə "lövbər" salmağa başladılar. Artıq daha çox uzaqdan zərbələrə üstünlük verən komandamız 37-ci dəqiqədə rəqibi yenidən mərkəzə dəvət etdi. Bu dəfə də Əlimirzə Daşzərini uzaqdan necə dəqiq zərbələrə malik olduğunu nümayiş etdirdi. Onun 25 metr məsafədən zərbə ilə vurduğu top qapıçı üçün alçatmaz oldu. Bununla, "AZAL"-ın keçmiş futbolçusu Naxçıvan klubunda ilk dubluna imza atdı.

Oyunun ikinci hissəsində Əsgər Abdullayev daha çox digər futbolçuları sınaqdan keçirmək niyyətində oldu. Demək olar ki, oyunçuların çoxunu dəyişən tanınmış mütəxəssis həm də digər futbolçuların mövsümə hazır olub-olmadığına şahidlik etdi. Oyunun ikinci hissəsində tablodakı hesab dəyişmədi.

Bununla, "Araz-Naxçıvan" Türkiyənin Ərzurum şəhərindəki təlim-məşq toplanışında iki yoxlama görüşü keçirdi və hər ikisində qələbə qazandı. Bir faktı da qeyd edək ki, komandamız keçirdiyi hər iki matçda qapısının toxunulmazlığını qoruya bildi.

### *Oyundan sonra...*

Hüseyn Məhəmmədov ("Araz-Naxçıvan"ın qapıçısı): "Oyun haqda onu deyə bilərəm ki, rəqibimiz çox güclü oyun nümayiş etdirdi. Futbolçularımız yaxşı əzmkarlıq göstərdi və çətin də olsa, qələbə qazandıq. Komandamız hələ yeni yaranıb və formalaşmaqdadır. Türkiyədəki təlim-məşq bir daha onu göstərdi ki, komandamıza böyük qayğı göstərilir və "Araz-Naxçıvan" çempionatda iddialıdır".

Mikayıl Rəhimov ("Araz-Naxçıvan"ın müdafiəçisi): "Oyun çox yaxşı keçdi. Futbolçularımız sonadək əllərindən gələni etdilər ki, oyundan qalib ayrılaq. İnşallah, çempionatda da qələbələr qazanıb, yüksək liqaya vəsiqəni təmin edərik".

Əlimirzə Daşzərini ("Araz-Naxçıvan"ın müdafiəçisi): "Görüş çox maraqlı keçdi. Üstünlük oyun boyu bizdə idi. Komandamız kollektiv oyun nümayiş etdirib qələbə qazandı. Bu qələbələrin ardı gələcək".

Rəhman Musayev ("Araz-Naxçıvan"ın hücumçusu): "Hər iki oyunda qələbə qazandıq. Bu matçda ehtiyatda olan oyunçular sonradan meydana girərək nəyə qadir olduqlarını göstərdilər və komandanın qələbəsi üçün əllərindən gələni etdilər".

**Ceyhun MƏMMƏDOV**

## Naxçıvan Muxtar Respublikasının Dövlət Energetika Agentliyi üzrə 2013-cü ilin avqust ayında verilən elektrik enerjisinin miqdarı, elektrik enerjisi satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/№ | Şəhər və rayonlar | Verilən elektrik enerjisinin miqdarı (min kvt/saat) | Elektrik enerjisinin dəyəri (min manat) | Toplanan vəsait (min manat) | Ödənilmə faizi (%) |
|---|---|---|---|---|---|
| 1. | Ordubad rayonu | 928 | 55,7 | 56,5 | 101,4 |
| 2. | Kəngərli rayonu | 527 | 31,6 | 32,0 | 101,3 |
| 3. | Şahbuz rayonu | 330 | 19,8 | 20,0 | 101,0 |
| 4. | Culfa rayonu | 1133 | 68,0 | 68,5 | 100,7 |
| 5. | Sədərək rayonu | 260 | 15,6 | 15,7 | 100,6 |
| 6. | Babək rayonu | 1633 | 98,0 | 98,2 | 100,2 |
| 7. | Şərur rayonu | 1814 | 108,8 | 109,0 | 100,2 |
| 8. | Naxçıvan şəhəri | 3180 | 190,8 | 191,0 | 100,1 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 30977 | 1858,6 | 1860,6 | 100,1 |
| | **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | **40782** | **2446,9** | **2451,5** | **100,2** |

**Qeyd:** Avqust ayında texniki itki nəzərə alınmaqla daxil olan 40 milyon 782 min kilovat-saat elektrik enerjisinin dəyəri 2 milyon 446 min 900 manat olmuş, cəmi 2 milyon 451 min 500 manat vəsait toplanmışdır ki, bu da istifadə olunan enerjinin dəyərinin 100,2 faizini təşkil edir.

### *Allah rəhmət eləsin*

Naxçıvan Muxtar Respublika Xəstəxanasının baş həkimi Əli Ələsgərov və xəstəxananın həkimlərindən Qasım Əliyev, Arif Rzayev, Mustafa Fətullayev, Əli Əsgərov və Abbas Hacıyev iş yoldaşları Mahirə Məmmədovaya, əzizi **MƏMMƏDHÜSEYNİN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Muxtar Respublikası Dövlət Baytarlıq Xidmətinin kollektivi xidmətin rəisi Əbil Əbilova, atası **MEHRAC ƏBİLOVUN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Naxçıvan Diaqnostika-Müalicə Mərkəzinin kollektivi mərkəzin baş həkimi Abasət Hüseynəliyevə, yaxın qohumu **ƏNVƏRİN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Naxçıvan Şəhər Uşaq-Gənclər İdman Məktəbinin kollektivi iş yoldaşları **MƏMMƏDHÜSEYN MƏMMƏDOVUN** vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Naxçıvan Şəhər Baytarlıq İdarəsinin kollektivi Naxçıvan Muxtar Respublikası Dövlət Baytarlıq Xidmətinin rəisi Əbil Əbilova, atası **MEHRAC ƏBİLOVUN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Naxçıvan Muxtar Respublikası Dövlət Baytarlıq Laboratoriyasının direktoru Rizvan Hüseynov və laboratoriyanın kollektivi Əbil Əbilova, atası **MEHRAC ƏBİLOVUN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Muxtar Respublika Xəstəxanasının baş həkim müavini Ramazan Abbasov və xəstəxananın həkimlərindən Məmməd Şahverdiyev, Miryusif Seyidov, Xalidə Bağırova və Sevil Abdullayeva iş yoldaşları Mahirə Məmmədovaya, əzizi **MƏMMƏDHÜSEYNİN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

**ŞƏRQ** *qapısı*
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575
*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Səbuhi Həsənov
*Qəzet redaksiyanın kompyuter mərkəzində yığılıb, səhifələnib və "Əcəmi" NPB-də ofset üsulu ilə çap olunmuşdur.*
Tiraj: 3940. Sifariş № 805